# Dünya mətbuatı I Şuşa Qlobal Media Forumundan yazır

## Prezident İlham Əliyevin Qarabağdan səsləndirdiyi fikirlər xarici KİV-in əsas gündəm mövzusu oldu

**İyulun 21-də Prezident İlham Əliyevin mədəniyyət paytaxtımız Şuşada "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda keçirilən I Şuşa Qlobal Media Forumundakı çıxışı dünya mediasının da diqqət mərkəzində olub.**




Dünya KİV-i 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, eləcə də yerli media orqanlarının rəhbərlərinin iştirak etdiyi forumun əhəmiyyətinə və Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərə diqqət ayırıb.

Qardaş Türkiyənin "TRTHaber", "Takvim", "Yeni Şafak", "Haber-Global", "Milliyet", "Anadolu" agentliyi, "CNN Türk" və başqa telekanal, agentlik, qəzet və portalları tərəfindən Prezident İlham Əliyevin fikirlərinə geniş yer ayrılıb. Bu media orqanları dövlətimizin başçısının söylədiyi "İkinci Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə rəhbərliyi ilə xalqı bizimlə çiyin-çiyinə dayanmışdı. Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi bəyanat ki, Azərbaycan yalnız deyil, - bu, bizim üçün çox böyük dəstək idi" fikirlərini ön plana çıxarıblar.

Türkiyə mediasının dərc etdiyi materiallarda vurğulanıb ki, dünyada və regionda vəziyyətin dəyişməsinə, yaranan yeni reallıqlara toxunan Azərbaycan Prezidenti dayanıqlı sülhün, təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətindən danışıb. O, Türkiyənin bu məsələdə mühüm rolunu vurğulayıb, Ankaranın eyni zamanda qarşıdakı illərdə daha çox qlobal nüfuz qazanacağını bildirib.

I Şuşa Qlobal Media Forumu Rusiya mediasının da diqqət mərkəzində olub. Bu ölkənin rəsmi TASS agentliyinin yaydığı, habelə "News.ru" və "Ria.ru" saytında yerləşdirilən xəbərlərdə Prezident İlham Əliyevin Rusiya-Azərbaycan münasibətləri, Türkiyə ilə əlaqələrin daha da güclənəcəyi, Bakının Qoşulmama Hərəkatına yeni nəfəs verməsi, Azərbaycanın Moskva ilə Vaşinqton arasında münasibətlərin bərpası üzrə danışıqlar məkanı ola biləcəyi, Qarabağa yaxın üç ildə 150 min azərbaycanlının qayıdacağı, Ermənistanla sülh sazişinin bu ilin sonuna qədər imzalanması ehtimalı barədə fikirləri yer alıb.

"Vesti Kavkaza" portalı isə dövlət başçısının Ermənistanın mina terroru, Azərbaycan dövlətinin ərazilərin minalardan təmizlənməsi üzrə fəaliyyəti haqqında fikirlərinə geniş yer ayırıb. Rusiya mətbuatı I Şuşa Qlobal Media Forumunda müzakirə olunan məsələlər barədə ətraflı məlumat verib.

Albaniya Teleqraf Agentliyinin (ATA) xəbərlərində qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev I Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunub. Xəbərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Moskva ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, müharibədə qazanılmış qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs edib.

İspaniyanın "El Periodista" nəşrində dərc olunan xəbərdə də Azərbaycan Prezidenti İlham Əliyevin forumdakı çıxışının əsas məqamları yer alıb. Materialda dövlətimizin başçısının dünyada və Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqlar, Qarabağda son vəziyyət və bu regionda yaşayan erməni azlığı ilə bağlı fikirləri, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi və azərbaycanlıların öz torpaqlarına qayıtması barədə fikirləri yer alıb. Yazıda qeyd olunub ki, Ermənistanın mina terrorundan bəhs edən Azərbaycanın dövlət başçısı deyib: "Ermənilərin bizə verdiyi xəritə təqribən 400 min minanı əhatə edir. Yəni etiraf etdilər ki, onlar 400 mindən artıq mina basdırıblar. Ancaq biz bilirik və bu, olduqca dəqiq məlumatdır ki, minaların sayı 1 milyona yaxındır".

"Associated Press" agentliyində yayımlanan "I Şuşa Qlobal Media Forumu: dünyanın media liderləri arasında ilhamverici birlik" sərlövhəli məqalədə forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin mühüm mövzuları, o cümlədən yeni media sahəsində irəliləyişləri və Azərbaycanın regionda strateji əhəmiyyəti ilə bağlı fikirlərinə yer verib. Məqalədə Azərbaycanda media sahəsində davam edən islahatların bu sahənin müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açması barədə dövlətimizin başçısının fikirləri xüsusi vurğulanıb.

Rumıniyanın nüfuzlu KİV-i, "AGERPRES" milli xəbər agentliyi, "Ultima ora" qəzeti, "news24hours" xəbər portalı və bunlara istinadən digər KİV Şuşa şəhərində keçirilən Qlobal Media Forumu barədə davamlı məqalələr, videolar yayıblar. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev cümə günü 50 ölkədən olan 120 media qurumunu təmsil edən 200-dən çox qonaqla görüşüb. Dövlət başçısı çıxışında bildirib ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin müstəqilliyi cəmiyyətin inkişafı üçün ən mühüm şərtlərdən biridir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan iqtisadiyyatı özünü təmin edir, ölkədə sabitlik hökm sürür, cəmiyyətdə həmrəylik səviyyəsi həmişəkindən yüksəkdir, ölkənin iqtisadi inkişafı yüksək templə irəliləyir. Bildirilir ki, Prezident Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsinin, davamlı sülhə nail olunmasının və təhlükəsizliyin təmin edilməsinin vacibliyini qeyd edib. Bu kontekstdə o, Ankaranın sabitləşdirici rol oynadığını və gələcəkdə qlobal məsələlərdə, xüsusən də bu regionda Türkiyənin rolunun çox əhəmiyyətli olduğunu vurğulayıb.

Misirin MENA xəbər agentliyinin saytında və nüfuzlu "Əl Əhram" qəzetində "Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin inkişafının prioritet məsələ olduğunu bildirib" sərlövhəli məqalə dərc edilib. Yazıda diqqətə çatdırılıb ki, I Şuşa Qlobal Media Forumunda iştirak edən dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistlərin suallarını cavablandıran Azərbaycanın dövlət başçısı uzun illər işğaldan əziyyət çəkən ölkəsinin sülhə və inkişafa nail olmaq istədiyini bildirib.

"Belbaladi" və "Əl Hərir" informasiya portallarında qeyd edilib ki, forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev medianın insanların maarifləndirilməsi və onların problemlərinin həllində mühüm rol oynadığını söyləyib. Azərbaycanın dövlət başçısı həmçinin ənənəvi media ilə yanaşı, sosial medianın da mühüm rolunu qeyd edib.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev I Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunub. O, Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Moskva ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, müharibədə qazanılmış Qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs edib.

Pakistanın rəsmi "Associated Press of Pakistan" agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışından əsas məqamları dərc edib. Xəbərdə qeyd olunub ki, tədbir iştirakçıları qarşısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev medianın insanların maarifləndirilməsində və onların problemlərinin həllində mühüm rol oynadığını söyləyib. Azərbaycanın dövlət başçısı həmçinin ənənəvi media ilə yanaşı, sosial medianın da mühüm rolunu qeyd edib. Bildirilib ki, Şuşa şəhəri müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır.

"Belarus seqodnya" nəşri öz xəbərində yazıb ki, rəsmi açılış mərasimindən sonra forum işini sessiyalarda davam etdirəcək, rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə olunacaq.

Bu nəşrdə həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında Rusiya-Azərbaycan münasibətləri barədə söylədiyi fikirlər də yer alıb. Qeyd olunub ki, dövlət başçısı Moskva ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu, həmçinin konkret nəticələrə əsaslandığını bildirib.

ABŞ-nin "Newyorkinsider.net", Fransanın "France11", Kubanın "Prensa-latina.cu", Qırğızıstanın "AKİ Press", eləcə də digər xarici KİV-də də yayımlanan məqalələrdə I Şuşa Qlobal Media Forumunun əhəmiyyəti qeyd olunub, bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı və dövlət başçısının fikirləri diqqət mərkəzində saxlanılıb.

*Hazırladı:*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*